

“Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var”.

# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 6 aprel 2024-cü il №25 (2836) https://mod.gov.az Qiymıəti 30 qəpik


## Konqo Prezidenti Deni Sassu-Nqessonun Azərbaycan Respublikasına rəsmi səfəri

*Azərbaycan Respublikasına rəsmi səfərə gələn Konqo Respublikasının Prezidenti Deni Sassu-Nqessonun aprelin 4-də rəsmi qarşılanma mərasimi olub.*



Hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı meydanda Konqo Prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülüb.

Azərbaycan Prezidenti İlham Əliyev Konqo Prezidenti Deni Sassu-Nqessonu qarşılayıb.

Fəxri qarovul dəstəsinin rəisi Konqo Prezidentinə raport verib.

Prezident Deni Sassu-Nqesso Azərbaycan əsgərlərini salamlayıb.

Dövlət başçıları fəxri qarovul dəstəsinin qarşısından keçiblər.

Konqo Respublikasının və Azərbaycan Respublikasının Dövlət himnləri səsləndirilib.

Azərbaycan nümayəndə heyəti Konqo Prezidentinə, Konqo nümayəndə heyəti isə Azərbaycan Prezidentinə təqdim olunub.

Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında Azərbaycan Prezidenti İlham Əliyevin və Konqo Prezidenti Deni Sassu-Nqessonun qarşısından keçib.

Dövlət başçıları rəsmi foto çəkdiriblər.

Rəsmi qarşılanma mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Konqo Respublikasının Prezidenti Deni Sassu-Nqesso ilə təkbətək və geniş tərkibdə görüşü keçirilib. Görüşdə çıxış edən Prezident **İlham Əliyev** deyib:

- Hörmətli cənab Prezident.

Hörmətli qonaqlar.

Mən Sizi bir daha salamlayıram, Azərbaycana xoş gəlmisiniz.

Sizin səfəriniz çox böyük əhəmiyyət daşıyır və bu gün təkbətək görüşdə biz bir çox məsələləri geniş müzakirə etdik. Gündəliyimiz kifayət qədər genişdir. Biz bu gün siyasi, iqtisadi, investisiya, energetika və digər sahələrdə mümkün olan əməkdaşlıq haqqında danışmışıq. Müzakirə olunan bütün məsələlərlə bağlı bizim fikrimiz üst-üstə düşür. Təbii ki, səfəriniz bizim gələcək əməkdaşlığımıza da çox müsbət təsir göstərəcəkdir. Bizim siyasi əlaqələrimiz daha da möhkəmlənəcək. Ümid edirəm ki, səfərdən sonra əldə edilmiş razılaşmaların icrası nəticəsində ticarət dövriyyəsində müsbət dinamika yaranacaq. Energetika və kənd təsərrüfatı sektorlarındakı əməkdaşlıq haqqında biz Sizinlə bu gün geniş fikir mübadiləsi aparmışıq və yenə də fikir ayrılığı yoxdur. COP29-la bağlı birgə işləməyə hazırıq və bizə verdiyiniz dəstəyə görə sizə təşəkkürümü bildirirəm.

**(Ardı 2-ci səhifədə)**

## Prezidentin Mətbuat xidmətinin məlumatı

Aprelin 3-də ABŞ Dövlət katibi Antoni Blinken Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.

Antoni Blinken aprelin 5-də ABŞ, Avropa İttifaqı və Ermənistan arasında keçiriləcək üçtərəfli görüşün Azərbaycan tərəfdə narahatlıq doğurduğuna dair xəbərlər aldığını və bu xüsusda Prezident İlham Əliyevlə danışaraq məsələyə aydınlıq gətirilməsini vacib hesab etdiyini deyib.

Dövlət katibi sözügedən görüşün əsas mahiyyətini Ermənistanın iqtisadi inkişafı məsələlərinin təşkil edəcəyini diqqətə çatdırıb.

Prezident İlham Əliyev qeyd edib ki, onda olan məlumata görə üçtərəfli görüşə hazırlıq prosesində Ermənistana hərbi dəstək və birgə hərbi təlimlərin keçirilməsi, Azərbaycan ilə sərhədyanı ərazilərdə hərbi infrastrukturun yaradılması, Avropa İttifaqının Avropa sülh mexanizmi xətti ilə və ABŞ büdcəsi hesabına Ermənistanın silahlandırılması kimi məsələlər də müzakirə olunub. Dövlətimizin başçısı anti-Azərbaycan mahiyyəti daşıyan bu kimi addımların, o cümlədən Fransa tərəfindən də Ermənistanın silahlandırılması siyasətinin regionda silah yarışına rəvac verdiyini və təxribatlara gətirib çıxaracağını vurğulayıb.

Telefon danışığı zamanı Antoni Blinken 5 aprel görüşünün Azərbaycana qarşı olmadığını vurğulayıb.

Söhbət əsnasında Ermənistan ilə Azərbaycan arasında sülh danışıqlarına dair müzakirə aparılıb. Prezident İlham Əliyev xarici işlər nazirlərinin sülh müqaviləsinin mətni üzrə Berlində apardıqları danışıqların prosesin irəlilədilməsi baxımdan faydalı olduğunu və danışıqların sürətləndirilməsinə ehtiyac olduğunu deyib.

Həmçinin dövlətimizin başçısı Qərbdə Azərbaycanın Ermənistana hücum etmək niyyətində olduğu barədə səsləndirilən ittihamların tamamilə əsassız olduğunu vurğulayıb.

Prezident İlham Əliyev aprelin 2-də Parisdə Antoni Blinken ilə keçirilmiş mətbuat konfransında Fransa xarici işlər nazirinin yalan danışaraq, Azərbaycanı Ermənistanın ərazi bütövlüyünü tanımamaqda və Ermənistana qarşı təhlükə mənbəyi olmaqda ittiham etdiyini bildirib.

Dövlətimizin başçısı Azərbaycanın 2022-ci ildə Praqa görüşü zamanı qəbul edilmiş bəyanata və Alma-Ata bəyanatına sadiq olduğunu vurğulayıb.

Prezident İlham Əliyevin qənaətinə görə aprelin 5-də keçirilməsi planlaşdırılan ABŞ, Avropa İttifaqı və Ermənistan üçtərəfli görüşünün qeyri-şəffaf hazırlanması, qeyri-inklüziv xarakter daşıması və Azərbaycanın haqlı iradlarına baxmayaraq təxirə salınmaması Cənubi Qafqazda sülhə, əməkdaşlığa deyil, ayırıcı xətlərin və nəticə etibarilə gərginliyin yaranmasına gətirib çıxaracaq.

Söhbət zamanı Azərbaycan və ABŞ arasında ikitərəfli əməkdaşlıq məsələlərinə də toxunulub. Antoni Blinken bu ilin fevralında Münxen Təhlükəsizlik Konfransı çərçivəsində Prezident İlham Əliyev ilə apardığı müzakirələri qeyd edərək, ölkəsinin müxtəlif sahələrdə Azərbaycan ilə əməkdaşlığı genişləndirmək niyyətində olduğunu vurğulayıb. O, həmçinin COP29 çərçivəsində iki ölkənin nümayəndə heyətlərinin təmaslarını qeyd edib.

Prezident İlham Əliyev Münxen Təhlükəsizlik Konfransı çərçivəsində keçirilmiş görüşdə müzakirə olunan istiqamətlər üzrə Azərbaycanın da ABŞ ilə ikitərəfli əlaqələrinin inkişafında maraqlı olduğunu, COP29-un iqlim dəyişikliyi məsələləri və yaşıl texnologiyalar sahəsində ölkələrimiz arasında əməkdaşlıq üçün yaxşı imkanlar yaratdığını bildirib.

* * *

Aprelin 4-də Avropa Komissiyasının Prezidenti Ursula Fon der Lyayen Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.

Telefon danışığı əsnasında tərəflər Azərbaycan ilə Avropa İttifaqı arasında əməkdaşlığın inkişaf perspektivlərini müzakirə ediblər, bu xüsusda, bərpaolunan enerji, nəqliyyat bağlantıları, enerji təhlükəsizliyi və digər əməkdaşlıq sahələri qeyd olunub.

Söhbət zamanı 2022-ci ildə Azərbaycan ilə Avropa İttifaqı arasında imzalanmış enerji sahəsində strateji tərəfdaşlığa dair Anlaşma Memorandumunun əhəmiyyəti vurğulanıb.

Azərbaycanın sədrliyi ilə Bakıda keçiriləcək COP29-un iqlim fəaliyyəti və yaşıl keçid sahəsində əməkdaşlıq üçün əlverişli imkanlar yaratdığı bildirilib.

Avropa Komissiyasının Prezidenti Avropa İttifaqının humanitar minatəmizləmə fəaliyyətində Azərbaycana dəstək göstərməyə hazır olduğunu vurğulayıb.

Telefon danışığında aprelin 5-də Brüsseldə keçiriləcək üçtərəfli görüş məsələsi qaldırılıb. Prezident İlham Əliyev ABŞ Dövlət katibi Antoni Blinken ilə müzakirə olunduğu kimi, bu görüşlə bağlı Azərbaycan tərəfinin mövqeyini ifadə edib və regional inklüzivliyin vacibliyini bildirib.

## Prezidentin Mətbuat Xidməti AZƏRTAC-ın sualını cavablandırıb

**Sual**: Dünən ABŞ Dövlət katibi Antoni Blinkenlə Prezident İlham Əliyev arasında telefon danışığı ilə əlaqədar ABŞ tərəfindən verilmiş mətbuat açıqlamasında qeyd olunur ki, telefon danışığı zamanı müzakirə edilən məsələlərdən biri də insan hüquqları olmuşdur. Bu barədə nə deyə bilərsiniz?

**Cavab**: Bəli, telefon danışığı əsnasında bir çox məsələlərə, o cümlədən bu məsələyə də toxunulmuşdur. Prezident İlham Əliyev tərəfindən bildirilib ki, insan hüquqları məsələsini bəhanə edərək Azərbaycanın daxili işlərinə müdaxilə cəhdləri tamamilə qəbuledilməzdir. Bir sıra Qərb ölkələrinin bu məsələ ilə bağlı ikili standartlara əsaslanan qərəzli açıqlamalarını qəbul etmirik. Bu xüsusda dövlətimizin başçısı Dövlət katibi Antoni Blinkenə Ermənistanda müxalifət nümayəndələrinin həbsi, hətta həbs müddətində ölüm hallarının olması, insan hüquqlarının pozulması hallarını xatırladıb və bu kontekstdə Qərb ölkələrinin səssizliyinin başadüşülən olmadığını, bu kimi faktların məhz ikili standartların bariz nümunəsi olduğunu qeyd edib.

Prezident İlham Əliyev telefon danışığı zamanı, həmçinin tanınmış jurnalist Culian Assancın məhz jurnalist fəaliyyətinə görə uzun müddət fiziki və mənəvi işgəncələrə məruz qalması məsələsini bildirmişdir. Culian Assancın ABŞ-a ekstradisiya edilmək və edam olunmaq məsələsinin müzakirə edildiyini vurğulamışdır. Dövlətimizin başçısı onu da əlavə etmişdir ki, insan hüquqları məsələsinə təkcə lokal deyil, bütövlükdə qlobal kontekstdə baxılması zəruridir.

# Konqo Prezidenti Deni Sassu-Nqessonun Azərbaycan Respublikasına rəsmi səfəri



(Əvvəli 1-ci səhifədə)

Bu gün, eyni zamanda, təhsil, mədəniyyət və digər sahələrdəki əməkdaşlıq imkanlarını da müzakirə etdik və apardığımız bütün müzakirələr bir daha göstərir ki, bizim vahid mövqeyimiz bu məsələ ilə bağlı vardır.

Sizin rəsmi səfərinizdən öncə Konqodan və Azərbaycandan nümayəndə heyətlərinin qarşılıqlı surətdə səfərləri təşkil edilmişdir. Bu, səfərə hazırlıq məqsədi daşıyan addımlar idi. Əminəm ki, bu gün imzalanacaq sənədlər və əldə edilmiş razılaşmalar bizim əməkdaşlığımızı böyük dərəcədə gücləndirəcək.

Bir daha xoş gəlmisiniz.

* * *

Sonra Konqo Respublikasının Prezidenti **Deni Sassu-Nqesso** çıxış edərək deyib:

- Cənab Prezident.

Mən, ilk növbədə, Sizə təşəkkürümü ifadə etmək istərdim ki, Siz bizə şərait yaratdınız, biz Sizin gözəl ölkənizi, gözəl şəhərinizi, paytaxtınızı ziyarət edə bildik. Biz uzun müddətdir ki, Bakı haqqında eşitmişik və Sizin dəvətiniz sayəsində biz Azərbaycanı və Bakını ziyarət etdik. Buna görə Sizə bir daha təşəkkürümü ifadə edirəm.

Siz bizim təkbətək görüşümüzün icmalını etdiniz. Mən, sadəcə, bir-iki şərh vermək istərdim ki, bizim ölkələrimiz arasında çox böyük potensial var və o, bizim əhalimiz üçün inkişafa töhfə verə bilər. Mən məsələn, qeyd etmişdim ki, bizim ölkəmizin çox böyük kənd təsərrüfatı potensialı var və biz əkin sahələrinin bəlkə də cəmi 3 faizini istifadə edirik, bu da o deməkdir ki, yerdə qalan hamısı istifadə üçün hazırdır. Bizim bol su mənbələrimiz və bütün ilboyu şəfəq saçan Günəşimiz var. Biz bu potensialdan və sizin bu sahədəki böyük təcrübənizdən kənd təsərrüfatımızın inkişafı üçün istifadə edə bilərik. Məsələn, biz Konqoda məhsul istehsal edə və sonra onu ixrac edə bilərik.

Mən, eyni zamanda, bir daha qeyd etmək istərdim ki, bərpaolunan enerji sahəsində də bizim çox böyük potensialımız var, bütün ilboyu Günəşimiz var və Azərbaycanın bu sahədəki zəngin təcrübəsindən yararlana bilərik.

* * *

Görüşlərdən sonra Prezidentlərin iştirakı ilə Azərbaycan-Konqo sənədlərinin imzalanması mərasimi olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Konqo Respublikasının Prezidenti Deni Sassu-Nqesso "Azərbaycan Respublikası və Konqo Respublikası arasında əməkdaşlıq haqqında Bəyanname"ni imzalayıblar.

Səfər çərçivəsində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Konqo Respublikasının Prezidenti Deni Sassu-Nqesso mətbuata bəyanatlarla çıxış ediblər.

Əvvəlcə Azərbaycan Respublikasının Prezidenti bəyanatla çıxış edib.

### Prezident İlham Əliyevin bəyanatı

- Hörmətli cənab Prezident.

Hörmətli qonaqlar, xanımlar və cənablar.

İlk növbədə, cənab Prezident, bir daha Sizi Azərbaycanda səmimiyyətlə salamlayıram, xoş gəlmisiniz. Sizin səfəriniz tarixi səfərdir. İlk dəfədir ki, Konqo Respublikasının Prezidenti Azərbaycana rəsmi səfər edir. Artıq demək mümkündür ki, səfərin çox gözəl nəticələri olacaq.

Biz indicə əməkdaşlıq haqqında Bəyannamə imzalamışıq. Bu, çox önəmli və sanballı bir sənəddir, bizim əməkdaşlığımızın perspektivlərini müəyyən edəcək. Əminəm ki, Konqo ilə Azərbaycan arasında güclü dostluq əlaqələri yaradılacaqdır.

Bu gün həm təkbətək görüş əsnasında, həm də ki, heyətlərin iştirakı ilə görüşdə bir çox önəmli məsələlər müzakirə olundu, fikir birliyi ifadə edildi. Bizim siyasi əlaqələrimizin bundan sonra uğurla inkişaf edəcəyinə heç kimdə şübhə yoxdur və bu gün imzalanmış əməkdaşlıq haqqında Bəyannamə bunu bir daha təsdiq edir.

Biz bundan sonra da beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı dəstək əsasında qarşılıqlı fəaliyyətimizi davam etdirəcəyik, xüsusilə BMT-də və Qoşulmama Hərəkatı çərçivəsində. Qoşulmama Hərəkatına bu ilin yanvar ayına qədər 4 il uğurla sədrlik etmiş Azərbaycan Konqonun dəstəyini hər zaman hiss etmişdir. Bizim təşəbbüslərimizə Konqo hər zaman öz dəstəyini vermişdir və bunun nəticəsində sədrliyimiz dövründə Qoşulmama Hərəkatının institusional inkişafı da təmin edilmişdir. Parlament Şəbəkəsi, Gənclər və Qadınlar platformaları məhz sədrliyimiz dönəmində yaradılmışdır. Bu gün Qoşulmama Hərəkatı əvvəlki dövrlərə nisbətən daha güclü təşkilatdır. Bu təşkilatın dünya miqyasında və dünyada gedən proseslərdə oynadığı rolunun artırılması hesab edirəm ki, hamımızın marağındadır. Qoşulmama Hərəkatı BMT-dən sonra ikinci böyük təsisatdır, 121 üzvü var. Biz bu təsisatın, bu hərəkatın gələcək inkişafı ilə bağlı geniş fikir mübadiləsi aparmışıq.

Onu da bildirməliyəm ki, Qoşulmama Hərəkatına sədrlik dövründə bizim prioritetlərimizin içində neokolonializmə qarşı mübarizə məsələləri durmuşdur, bu gün də bu belədir. Bizim xarici siyasət istiqamətləri arasında bu sahə xüsusi önəm daşıyır. Bir müddət bundan əvvəl Azərbaycanda Bakı Təşəbbüs Qrupu yaradılmışdır. Bu, beynəlxalq qurumdur. Bu qurumun əsas məqsədi kolonializmin, yəni, müstəmləkəçiliyin yeni təzahürlərinə qarşı mübarizə aparmaq və bu gün müstəmləkəçilikdən əziyyət çəkən xalqları dəstəkləmək, o xalqların hüquqi əsaslar üzərində azadlığa qovuşmasını təmin etməkdir. Bakı Təşəbbüs Qrupu bu gün dünya miqyasında böyük hörmətə malik olan qurumdur və yenə də deyirəm ki, bu qurumun nəticələri göz qabağındadır.

Biz bu gün, təbii ki, iqtisadi sahədə də əməkdaşlıq haqqında geniş fikir mübadiləsi aparmışıq. Nümayəndə heyətlərinin üzvlərinə konkret tapşırıqlar verilmişdir. Azərbaycan Konqoda bir çox investisiya layihələrində iştirak etmək fikrindədir, ilk növbədə, kənd təsərrüfatı sahəsində. Bərpaolunan enerji sahəsində, energetika sahəsində, mədənçilik və digər sahələrdə əməkdaşlıq üçün çox gözəl perspektivlər var. Bu gün müzakirə aparıldı, müvafiq göstərişlər verildi və əminəm ki, gələcək aylar ərzində bizim nümayəndələrimiz bir-biri ilə sıx təmasda olacaqlar.

Onu da bildirməliyəm ki, rəsmi səfər ərəfəsində səfəri yaxşı hazırlamaq və yaxşı nəticələrə nail olmaq üçün qarşılıqlı surətdə Konqodan Azərbaycana, Azərbaycandan Konqoya nümayəndə heyətlərinin səfərləri də təşkil edilmişdir. O səfərlər də göstərdi ki, bizim strateji əməkdaşlığımız üçün çox gözəl zəmin var.

Bir məsələ də bu gün müzakirə edildi. Cənab Prezident xatırladı ki, vaxtilə sovet dövründə Konqodan olan tələbələr Azərbaycanda ali məktəblərdə təhsil almışlar, biz bu ənənəni bərpa etmək istəyirik və müvafiq göstərişlər verildi.

Bir sözlə, mən deyəndə ki, bu səfər tarixi səfərdir, sadəcə, ona görə yox ki, bu, ilk səfərdir. Hesab edirəm ki, məzmun, mahiyyət nöqteyi-nəzərindən də bu səfəri tarixi səfər adlandırmaq olar. Ölkələrimiz arasındakı əlaqələrdə yeni səhifə açılır. Biz öz siyasi iradəmizi ortaya qoymuşuq və əminəm ki, əldə edilmiş bütün razılaşmalara birgə səylərlə çatacağıq.

Mən bu gün cənab Prezidenti COP29 tədbirində iştirak etmək üçün dəvət etmişəm və nümayəndə heyətlərinin üzvlərinə də göstəriş verildi ki, bu məsələ ilə bağlı da ciddi əməkdaşlıq yaradılsın. Azərbaycan COP29-un prezidenti kimi bu tədbirə çox ciddi hazırlaşır və burada Konqo ilə ikitərəfli formatda və çoxtərəfli formatda əməkdaşlıq etmək hesab edirəm ki, məqsədəmüvafiq ola bilər.



Bir daha hörmətli cənab Prezident, Azərbaycana xoş gəlmisiniz. Sizə cansağlığı, xalqınıza daim firavanlıq və rifah arzulayıram. Sağ olun.

* * *

Sonra Konqo Respublikasının Prezidenti bəyanatla çıxış edib.

### Prezident Deni Sassu-Nqessonun bəyanatı

- Cənab Prezident.

Hörmətli dostlar, media nümayəndələri.

Cənab Prezident bir az əvvəl tarixi məqamlardan danışdı və bu, həqiqətdir. Biz Azərbaycan ilə Konqo arasında əlaqələrdə tarixi anlar yaşayırıq. Mən Prezidentə səmimi qəlbdən təşəkkür etmək istərdim ki, bizi dəvət edərək bu rəsmi səfəri reallaşdırmaq üçün bu şəraiti yaradıb. Bu səfər bizə bu ölkənin gözəlliyini, onun iqtisadi inkişafını, Bakı şəhərinin gözəlliyini görmək imkanı verdi. Cənab Prezident, mən bu dəvətə görə Sizə təşəkkür etmək istərdim.

Prezident bizə Konqo ilə Azərbaycan arasında bütün sahələrdə bu gözəl əməkdaşlıq səhifəsini yaratmaq imkanını verdi. Hesab edirəm ki, Prezident bir az əvvəl apardığımız danışıqların bir sıra aspektlərini çox yaxşı şərh etdi. Mən əlavə etmək istərdim ki, biz xüsusilə Qoşulmama Hərəkatındakı sədrliyi zamanı Prezidentin liderliyini alqışladıq. Həmçinin biz Azərbaycanın bu yaxınlarda digər ağır mübarizə sahəsində - iqlim dəyişiklikləri sahəsində oynayacağı rolu alqışlayırıq, çünki Azərbaycan COP29-a ev sahibliyi edəcək. Biz artıq ölkələrimiz arasında qurulmuş əlaqələri alqışlayırıq və Azərbaycanı COP29-a hazırlıq çərçivəsində də alqışlayırıq. Biz Azərbaycan rəsmilərini dəvət etdik ki, iqlim dəyişikliklərinə qarşı mübarizədə ölkəmizin yanında olsun. Biz Prezidentə Konqoda, Brazzavildə təşkil etdiyimiz dünyanın ən böyük üç tropik meşə hövzəsi - Amazoniya, Cənub-Şərqi Asiyada Borneo Mekonq və Konqo hövzəsi sammitində güddüyümüz məqsədlər barəsində məlumat verdik. Bu sammit ötən ilin oktyabrında keçirilib və biz Prezidentə yalnız bu sammitin uğuru barəsində məlumat verə bilərik. Ondan sammitin nəticələrini nəzərə almasını ancaq xahiş edə bilərik, çünki bu il Azərbaycan COP29-a ev sahibliyi edəcək.

Biz, eyni zamanda, bu il iyulun 2-3-də Brazzavildə keçiriləcək Afrika və Qlobal Meşəsalma Onilliyi tədbiri barədə məlumat verdik. Bu, Şarm-əl Şeyxdə keçirilmiş COP zamanı Konqo tərəfindən irəli sürülmüş təşəbbüsdür. Biz Afrika və Qlobal Meşəsalma Onilliyi ideyasını irəli sürdük. Bu ideyanı konkretləşdirmək, bu layihəni reallaşdırmaq üçün Afrika İttifaqı, BMT və Konqo konfrans təşkil edəcək. Biz COP29-un təşkili ilə məşğul olan Azərbaycan rəsmilərini bu ideyanın reallaşdırılması və sonra onun Nyu-Yorkda BMT-nin Baş Assambleyasının növbəti sessiyasında qəbul olunması üçün iyulda bizə qoşulmağa dəvət etdik.

Prezident tərəfindən digər əməkdaşlıq məsələlərinə də toxunuldu. Karbohidrogen, kənd təsərrüfatı, mədənçilik, informasiya, bərpaolunan enerji sahələrində iki ölkənin mühüm potensialının olduğu qeyd edildi. Biz öhdəlik götürdük ki, ölkələrimiz arasında qeyd olunan bütün sektorlarda bu əməkdaşlıq inkişaf etsin. Prezident də dedi, biz öz nümayəndələrimizə təlimat verdik ki, layihələri yekunlaşdırmaq üçün birgə işləsinlər. Biz danışıqlarımızın nəticələrindən çox məmnunuq. Burada bizə göstərilən səmimi və dostcasına qəbula görə çox xoşbəxtik.

Biz inanırıq, düşünürük ki, burada ölkələrimiz arasında əməkdaşlıq istiqamətində çox yaxşı addım atdıq və biz mütləq qalib olacağıq. Ona görə də mən cənab Prezidentdən xahiş etdim ki, Konqoya dostluq səfəri etməklə bizi şərəfləndirsin. Mən ona dəvətnamə göndərəcəyəm və biz Prezidenti ölkəmizdə qəbul etməkdən şərəf duyacağıq. Bu da başqa bir tarixi hadisə olacaq. Prezidentin bizim ölkəmizə səfəri məhsuldar əməkdaşlığımızda növbəti addım olacaq.

Mən bizim tərəfimizdən ünvanlanan bütün sorğulara müsbət cavab verdiyinə görə Prezidentə təşəkkürümü ifadə edirəm. Bildirmək istərdim ki, biz beynəlxalq səviyyədə - istər BMT, istər Qoşulmama Hərəkatı çərçivəsində, istərsə də digər sahələrdə birlikdə mübarizə aparacağıq. Çünki söhbətimiz zamanı fikirlərimizin bir-biri ilə yüksək səviyyədə üst-üstə düşdüyünü gördük. Prezident və mənim tərəfimdən imzalanan Bəyannamə mühüm mərhələdir. Fikrimcə, bu, gələcək aylarda və illərdə ölkələrimiz arasında bütün sahələrdə fəaliyyəti istiqamətləndirəcək.

Sonda mən bu qəbula və keçirdiyimiz görüşlərin uğurlu olmasına görə Prezidentə təşəkkürümü bildirirəm.

**AZƏRTAC-ın materialları əsasında**

## Azərbaycan Ordusunun Baş Qərargah rəisi MDB iştirakçı dövlətlərin Silahlı Qüvvələrinin Qərargah Rəisləri Komitəsinin iclasında iştirak edib







Müdafiə nazirinin birinci müavini - Azərbaycan Ordusunun Baş Qərargah rəisi general-polkovnik Kərim Vəliyev Moskvada keçirilən MDB iştirakçı dövlətlərin Silahlı Qüvvələrinin Qərargah Rəisləri Komitəsinin növbəti iclasında iştirak edib.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, tədbirdə hərbi əməkdaşlığın inkişaf perspektivləri və qarşılıqlı maraq doğuran bir sıra digər məsələlər müzakirə olunub.

## HDQ-nin imkan və qabiliyyətinin inkişafı üzrə konfrans keçirilir



Cari ilin hazırlıq planına uyğun olaraq, Azərbaycan Hərbi Dəniz Qüvvələrinin (HDQ) imkan və qabiliyyətinin inkişafı üzrə konfrans keçirilir.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, konfransda əvvəlcə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin və Vətənimizin suverenliyi, ərazi bütövlüyü və torpaqlarımızın azadlığı uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Konfrans iştirakçılarını salamlayan birinci dərəcəli kapitan Teymur Mürşüdov Azərbaycan Ordusunun digər bölmələrində olduğu kimi, HDQ-nin də Türkiyə modelinə uyğunlaşdırılması istiqamətində görülən işlərdən danışıb. Bildirib ki, aparılan islahatlar çərçivəsində müasir tələblərə cavab verən ştat-strukturun qurulması, hərbi qulluqçuların peşəkarlığının daha da artırılması məqsədilə müxtəlif təlim və kursların keçirilməsi nəzərdə tutulub.

Birinci dərəcəli kapitan T.Mürşüdov vurğulayıb ki, konfransın keçirilməsində əsas məqsəd HDQ-nin modernləşdirilməsi, eləcə də yenidən qurulması istiqamətində işlərin daha səmərəli təşkil olunmasıdır.

Qeyd olunub ki, konfransda Xəzər dənizinin hüquqi statusu və regiona təsir edən konfliktlər, HDQ-nin şəxsi heyətinin xidməti, əməliyyat və döyüş hazırlığının təşkili və digər aktual mövzular üzrə müzakirələrin aparılması planlaşdırılır.



Sonda "Hərbi Dəniz Qüvvənin əməliyyat fəaliyyəti" üzrə aktual olan bir sıra mövzular haqqında brifinqlər təqdim olunub, fikir mübadiləsi aparılıb.

## “Birləşdik-2024” komanda-qərargah təliminin planlaşdırma konfransı keçirilib



Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Tacikistan və Özbəkistan respublikalarının müdafiə nazirlikləri arasında imzalanmış birgə plana əsasən, Qazaxıstanın Aktau şəhərində "Birləşdik-2024" əməliyyat-taktiki komanda-qərargah təliminin planlaşdırma konfransı keçirilib.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, Azərbaycan nümayəndə heyətinin də iştirak etdiyi konfransda təlimə hazırlıq və icra olunacaq tapşırıqlarla bağlı bir sıra məsələlər müzakirə olunub.

Qeyd edək ki, cari ilin iyul ayında Qazaxıstan Respublikasının "Oymaşa" təlim poliqonu, eləcə də Xəzər dənizinin akvatoriyasında yerləşən



Tokmak Burnunda keçiriləcək təlimdə "Silahlı münaqişələrin yerinin müəyyən edilməsi istiqamətində təlim-döyüş tapşırıqlarının icrası" üzrə fəaliyyətlər yerinə yetiriləcək.

## Hərbi hissələrdə birinci rübün nəticələrinə dair yekun iclaslar keçirilib



Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təsdiq etdiyi 2024-cü ilin hazırlıq planına əsasən, hərbi hissələrdə birinci rübün nəticələrinə dair yekun iclaslar keçirilib.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, əvvəlcə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin və Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Dövlət Himni səsləndirilib.

İclaslarda hərbi hissələrin döyüş qabiliyyətinin artırılması və xidməti-döyüş fəaliyyətinin təşkilinə dair cari ilin birinci rübü ərzində görülən işlər, yerinə yetirilən tapşırıqlarla bağlı məruzələr dinlənilib, döyüş hazırlığının, qoşun xidmətinin, maddi-texniki təminat və hərbi intizamın vəziyyəti geniş təhlil olunub.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin Azərbaycan Ordusu qarşısında qoyduğu vəzifələr, müdafiə naziri general-polkovnik Zakir Həsənovun xidməti-döyüş fəaliyyətinin, qoşun xidməti və



döyüş növbətçiliyinin təşkilinin daha da təkmilləşdirilməsi ilə bağlı tapşırıqları diqqətə çatdırılıb.

Sonda birinci rübün yekununa əsasən, hərbi xidmətdə fərqlənən hərbi qulluqçular təltif ediliblər.

# Aprel döyüşlərinin səkkizinci ildönümü ilə əlaqədar tədbirlər keçirilib



*Müdafiə naziri general-polkovnik Zakir Həsənovun tapşırığına əsasən, Azərbaycan Ordusunun qoşun növləri, hərbi birlik və birləşmə, eləcə də xüsusi təyinatlı təhsil müəssisələrində 2016-cı ilin Aprel döyüşlərində qazanılan qələbənin səkkizinci ildönümü ilə əlaqədar silsilə tədbirlər keçirilib.*

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, hərbi qulluqçular, Aprel döyüşlərinin iştirakçıları, şəhid ailə üzvləri və ictimaiyyətin nümayəndələri İkinci Şəhidlər xiyabanını ziyarət edərək şəhid məzarları önünə gül çələngləri, qərənfillər düzüb, unudulmaz şəhidlərimizə ehtiramlarını bildiriblər.

Keçirilən tədbirlərdə əvvəlcə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin və torpaqlarımızın ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.



Tədbirlərdə çıxış edənlər Aprel döyüşlərində qazanılan qələbənin Günnüt əməliyyatında, Tovuz döyüşlərində, Vətən müharibəsində, o cümlədən əməliyyat tədbirlərində əldə etdiyimiz möhtəşəm Zəfərin başlanğıcı olduğu vurğulanıb.

Tədbirlərin bədii hissəsində Aprel döyüşlərinə həsr olunan sənədli filmlər nümayiş olunub, şeirlər səsləndirilib, Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin solistlərinin ifasında vətənpərvərlik mövzusunda musiqi nömrələri və ədəbi-musiqili kompozisiya təqdim edilib.

Həmçinin hərbi qulluqçularımız şəhid ailələrinə baş çəkərək onların qayğı və istəkləri ilə maraqlanıblar.

* * *



Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzinin Heydər Əliyev muzey-lektoriyasında "Aprel döyüşlərindən böyük Zəfərə doğru" adlı vətənpərvərlik tədbiri keçirildi.

Əməkdar İncəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü polkovnik Abdulla Qurbani Aprel döyüşlərinin başvermə səbəbləri, Azərbaycan əsgərinin bu döyüşlər zamanı peşəkarlıq, şücaət, qəhrəmanlıq nümunələri göstərərək düşmənə dağıdıcı və sarsıdıcı zərbələr vurması, eləcə də Aprel döyüşlərindən sonra Azərbaycan Ordusunda şəxsi heyətin mənəvi-psixoloji hazırlığının, döyüş ruhunun, vətənpərvərlik hissinin və işğal olunan ərazilərin tezliklə azad ediləcəyinə inamın, qələbə əzminin daha da yüksəldilməsi istiqamətində aparılan məqsədyönlü tədbirlərdən danışdı.

Aprel döyüşləri və onun qəhrəmanları haqqında Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin "Bizim əsgərlərimiz, zabitlərimiz Vətən uğrunda, torpaq uğrunda ölümə getməyə hazırdırlar. Aprel döyüşləri bizim şanlı qələbəmizdir. Azərbaycan Ordusu öz gücünü göstərdi. Ermənistan uzun illər öz ordusu haqqında yalanlar, miflər uydururdu. Guya onların yenilməz ordusu var. Aprel döyüşləri göstərdi ki, hansı ordu yenilməzdir. Azərbaycan Ordusu yenilməz ordudur. Azərbaycan Ordusu istənilən vəzifəni icra etməyə qadirdir... İşğal edilmiş torpaqlarda, Dağlıq Qarabağda elə bir hədəf yoxdur ki, bu gün biz onu məhv edə bilməyək. Əgər erməni silahlı qüvvələri Aprel döyüşlərindən düzgün nəticə çıxarmasalar, gələcəkdə Lələtəpə əməliyyatı kimi bir çox uğurlu əməliyyatlar olacaqdır" fikirləri tədbir iştirakçılarının nəzərinə çatdırıldı. Azərbaycan Ordusunun Sənədli və Tədris Filmləri Mərkəzinin hazırladığı videoçarx nümayiş etdirildi.

Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Ordusunun Aprel döyüşlərindən böyük Zəfərə doğru qalibiyyət yürüşü vizual görüntülərlə izlənildi. Aprel döyüşlərində qazanılan qələbənin Günnüt əməliyyatında, Tovuz döyüşlərində, Vətən müharibəsində, o cümlədən əməliyyat tədbirlərində əldə etdiyimiz möhtəşəm Zəfərin başlanğıcı olduğu vurğulandı.

İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsinin rəisi polkovnik Elşad Əbilov bu gün də hərbi qulluqçularımızın düşmənin istənilən təxribatlarının qarşısını qətiyyətlə almağa hazır və qadir olduqlarını bildirdi.

Aprel döyüşlərinin iştirakçısı olan hərbi qulluqçuların xatirələri maraqla dinlənildi.

Çıxış edən şəhid ailə üzvləri göstərilən diqqət və qayğıya görə dövlətimizin başçısına və Müdafiə Nazirliyinin rəhbərliyinə minnətdarlıq etdilər.

**Kapitan**
**Mahmud MÖHBALIYEV**
**"Azərbaycan Ordusu"**



Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 2016-cı ilin Aprel döyüşləri haqqında qürurla deyib ki, "Aprel döyüşləri dərsliklərə salınmalıdır". Bu döyüşlər Azərbaycan Ordusunun gücünün, qüdrətinin təsdiqi kimi tarixləşdi. Bu döyüşlər də, qazanılan qələbə Azərbaycan Ordusunun şəxsi heyətinin mənəvi-psixoloji hazırlığında əhəmiyyətli oldu, hərbi qulluqçuların döyüş əzmini, qələbə ruhunu yüksəltdi. Bu qələbəni Azərbaycan əsgəri 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsində döyüş əzminin qalibiyyət bayrağı bilirdi…

C.Naxçıvanski adına Hərbi Liseydə keçirilən tədbirin iştirakçıları Birinci Qarabağ müharibəsi, Aprel döyüşləri, Vətən müharibəsi haqqında yazılmış kitablardan ibarət guşəni də Aprel döyüşlərində qazanılmış Qələbənin qüruru bildilər.

Polkovnik Saday Balayev Aprel döyüşlərinin mahiyyətindən, gedişindən, nəticələrindən danışaraq qeyd etdi ki, hələ 1994-cü ildə Ali Baş Komandan Heydər Əliyevin sərkərdəliyi ilə keçirilmiş Horadiz əməliyyatında min hektarlarla ərazinin, o cümlədən neçə-neçə kəndin işğaldan azad edilməsi ilə nəticələnmişdi. Bu qələbə bir gerçəkliyin də təsdiqi olmuşdu: Azərbaycan Ordusu torpaqlarımızı işğaldan azad etməyə qadirdir. 2016-cı il aprelin 1-dən 2-nə keçən gecə ordu hissələrimiz düşmənin iri miqyaslı təxribatının qarşısını qətiyyətlə aldı, Ali Baş Komandanın əmri ilə əks-hücuma keçdi. Bu döyüşlər də, qazanılan qələbə də Azərbaycan əsgərinin döyüş əzmini, qələbə ruhunu daha böyük qələbələrə - Böyük Qələbəyə yönəltdi. Həmin dövrlərdə mətbuatda döyüş iştirakçılarından birinin "Bu qələbə Böyük Qələbəmizin başlanğıcıdır" fikrini hamı ordumuzun fikri bildi. Yəni, Aprel qələbəsinin böyük mənəvi-psixoloji təsiri oldu.



Aprel döyüşlərinin iştirakçılarının döyüş yolunu davam etdirənlər 2020-ci ilin payızında tarixi Zəfər qazandılar…

Nümayiş etdirilən sənədli film tədbir iştirakçılarına Aprel döyüşləri haqqında həm informasiya verdi, həm döyüşlərin xronikasını xatırlatdı, həm də mənəviyyat baxımından Azərbaycan Ordusunun döyüş yolunun bir mərhələsinin qüruru kimi izlənildi. Sənədli film qəhrəmanları təqdim edirdi, unudulmayan, heç zaman unudulmayacaq şəhidlərdən danışırdı. Bu döyüşlər Vətən müharibəsindən əvvəl işğaldan qurtuluş döyüşlərinin də belə qəhrəmanlıqla davam edəcəyinin daha cəsarətlə, yenilməzliklə döyüşəcəklərinin zəmanəti kimi izlənildi.

Şəhid ailələri və müharibə veteranları ictimai birliyinin əməkdaşı Elçin Musayev çıxışında dövlətin şəhid ailələrinə, döyüşlərdə yaralananlara qayğısından söz açaraq dedi ki, təşkilatımız dövlətin siyasətinin icraçısıdır. Fəaliyyətimiz səmimi qayğıya, təşəbbüskarlığa əsaslanır. Çalışırıq ki, ruhən, mənən şəhid ailələri ilə bir olaq, onların da, döyüşlərdə yaralananların da problemlərinin həllində iştirakçı olaq. Bugünkü tədbiri həm ümumilikdə müharibə tariximizə, konkret olaraq Aprel döyüşlərinə, həm də bizim təşkilatımıza ehtiramın tədbiri bilirik. İstər Birinci Qarabağ müharibəsində, istər Aprel döyüşlərində, istərsə də Vətən müharibəsində iştirak etmiş neçə-neçə döyüşçü ilə, bu döyüşlərdə şəhid olanların ailə üzvləri ilə nəfəs-nəfəsə fəaliyyət göstərik. Biz də Aprel döyüşlərində qazanılmış qələbəni Vətən müharibəsində qazanılan tarixi Zəfərin başlanğıcı bilirik.

Torpaqlarımız işğaldan azad edildi, Azərbaycanın ərazi bütövlüyü tam bərpa olundu. İşğalın sonlanmasında Aprel döyüşlərinin əhəmiyyəti də tarixləşdi. Biz də bu tarixi qüruru yaşadırıq, yaşadacağıq...

**Rəşid HÜSEYNOV**
**"Azərbaycan Ordusu"**

(Ardı 5-ci səhifədə)

## Aprel döyüşlərinin səkkizinci ildönümü ilə əlaqədar tədbirlər keçirilib



(Əvvəli 4-cü səhifədə)

Azərbaycan Hərb Tarixi Muzeyində Aprel döyüşlərinin səkkizinci ildönümünə həsr olunmuş "Zəfərə gedən yolda ilk addımlar" adlı elmi seminar keçirildi. Seminarda Müdafiə Nazirliyinin hərbi qulluqçuları, idarə və müəssisələrinin nümayəndələri, Vətən müharibəsi və Aprel döyüşlərinin iştirakçıları, şəhid ailələri, Abbas Mirzə Şərifzadə adına Mədəniyyət Mərkəzinin bir qrup yaradıcı heyəti və başqa qonaqlar iştirak etdilər.

Sonra Hərb Tarixi Muzeyinin rəisi istefada olan polkovnik Əzizağa Qənizadə "2016-cı ilin Aprel Zəfəri - böyük qayıdışın başlanğıcı" adlı məruzəsində Azərbaycan Ordusunun uğurlu əks-hücum əməliyyatı haqqında ətraflı məlumat verərək bildirdi ki, Aprel döyüşləri Azərbaycan dövlətinin, dövlətçiliyinin, Azərbaycan əsgərinin gücünün, qüdrətinin təsdiqi kimi hərb tariximizin şanlı səhifələrinə yazıldı, Böyük Qələbəmizin başlanğıcı oldu. "Tarixə 4 günlük döyüş əməliyyatı kimi düşən Aprel döyüşlərində ordumuz Qələbə qazandı. Düşmənə sarsıdıcı zərbələr vurdu. Tərtər rayonunun Talış kəndi ətrafındakı yüksəkliklər, Cəbrayıl rayonunun Lələtəpə yüksəkliyi, Goranboy rayonunun Gülüstan kəndi istiqamətində işğal altında olan 2000 hektardan çox ərazi işğaldan azad olundu. Azərbaycan Ordusu qətiyyətli döyüşləri, qazandığı qələbələri ilə düşmənin məğlubedilməzlik mifini darmadağın etdi...".

Seminarda çıxış edən muzeyin baş elmi işçisi, tarix üzrə fəlsəfə doktoru Vahid ismayılov Aprel döyüşlərinin hərb tariximizdəki rolundan və əhəmiyyətindən, müstəqil Azərbaycan diplomatiyasının Zəfər yolundan danışdı. Azərbaycan Ordusunun şəxsi heyətinin vətənpərvərliyini və peşəkarlığını döyüş və mənəvi-psixoloji hazırlıqlarının yüksək səviyyədə olduğunu xüsusi vurğuladı.

Elmi seminar Aprel döyüşlərindən bəhs edən sənədli filmin nümayişi ilə davam etdi.

**Lalə HÜSEYNOVA**
**"Azərbaycan Ordusu"**

## Özbəkistan Respublikası Sılahlı Qüvvələrinin Hərbi Akademiyasında böyük sərkərdə və dövlət xadimi Əmir Teymurun irsinə həsr olunmuş elmi-praktik konfrans keçirilib



2024-cü ilin 4 aprel tarixində Özbəkistan Respublikası Sılahlı Qüvvələrinin Hərbi Akademiyasında onlayn (VTC) formatında böyük sərkərdə və dövlət xadimi Əmir Teymurun irsinə həsr olunmuş "Военное искусство Амир Темура: стратегия и тактика." adlı beynəlxalq elmi-praktik konfrans keçirilib.

Konfransda Özbəkistan Respublikası və xarici dövlətlərin Silahlı Qüvvələrinin nümayəndələri, ölkənin tanınmış dövlət və elm xadimləri, həmçinin ali təhsil müəssisələrinin tədqiqatçıları iştirak ediblər. Azərbaycan Respublikası Müdafiə Nazirliyi onlayn formatında qoşularaq bu konfransda Milli Müdafiə Universiteti Hərbi Elmi-Tədqiqat İnstitutunun nümayəndələri ilə təmsil olunub.

Konfransın plenar iclasında Özbəkistan Respublikası müdafiə nazirinin müavini, general-mayor Karşiyev Xamdam Əlikulovic konfrans iştirakçılarını salamlayaraq Əmir Teymurun böyük sərkərdə kimi hərb sənətinə verdiyi töhfələrindən danışıb və müharibə aparması üçün onun strateji baxışları və taktikada istifadə edilən üsullar barədə geniş məruzə ilə çıxış edib.

Konfransın plenar iclasında Milli Müdafiə Universiteti Hərbi Elmi Tədqiqat İnstitutunun Humanitar elmlər şöbəsinin professoru, ehtiyatda olan 1-ci dərəcəli kapitan, tarix elmləri doktoru, professor Nurulla Arif oğlu Əliyev "Военно-исторические аспекты похода Амир Темура в Азербайджан во второй половине XIV века." mövzusunda çıxış edib. Plenar iclasdan sonra beynəlxalq elmi-praktik konfrans işini üç bölmə üzrə davam etdirib və müzakirələr aparılıb.

Sonda beynəlxalq elmi-praktiki konfrans iştirakçılara Əmir Teymur irsinə həsr olunmuş videofilm təqdim olunub.

**"Azərbaycan Ordusu"**

## Aprel döyüşləri qazisi: Erməni hərbi qulluqçular "052" gəldi deyib qaçırdılar...

Düşmənin ön xəttini cəmi 45 dəqiqə ərzində yardıq.

Qarabağ münaqişəsi ilə bağlı Azərbaycan və Ermənistan arasında atəşkəs elan olunandan - 1994-cü ilin mayından 2016-cı ilin aprelinə qədər demək olar ki, hər gün cəbhədə düşmən təxribatının şahidi olurduq. Həmin təxribatlara hər dəfə layiqli cavab verilsə də, düşmən bundan nəticə çıxarmırdı. 2016-cı il aprelin 1-dən 2-nə keçən gecə düşmən təxribatı pik həddə çatdı. Ermənistan ordusunun cəbhə xəttinə yaxın yerləşən yaşayış məntəqələrini ağır silahlardan atəşə tutulurdu, artilleriya mərmiləri nəticəsində sakinlər arasında yaralananlar və həyatını itirənlər olurdu. Buna qarşılıq olaraq Ali Baş Komandan, Prezident cənab İlham Əliyevin əmri ilə Azərbaycan ordusu əks-hücum əməliyyatına başladı. Təbii ki, 22 il ərzində Azərbaycan Ordusunun arsenalı ən müasir silah, texnika ilə təchiz edilməklə yanaşı, hərbi qulluqçuların peşəkarlıqlarının artırılması, dünyanın müxtəlif ölkələrində hərbi kurslarda, təlimlərdə iştirak etməsi, bilik və bacarıqlarını inkişaf etdirməsi diqqət mərkəzində olmuşdu. Bunun nəticəsi idi ki, hərb yarışlarında Azərbaycan xüsusi təyinatlıları dəfələrlə dünya xüsusi təyinatlıları arasında birinci oldu, tankçılarımız, artilleriyaçılarımız, istehkamçılarımız ilk üçlükdə qərarlaşdılar. Bütün bunlar Azərbaycan Ordusunun nə qədər inkişaf etdiyinin göstəricisi idi. Aprel döyüşləri 22 il ərzində Azərbaycan Ordusunun yığdığı bilik, bacarıq və döyüş təcrübəsini məhz real döyüş şəraitində tətbiq etməyə, eyni zamanda, Ermənistan ordusunun zəif nöqtələrini aşkarlamağa şərait yaratdı.

Bunu AZƏRTAC-a müsahibəsində Xüsusi Təyinatlı Qüvvələrin ehtiyatda olan zabiti, Aprel döyüşlərinin qazisi, "Böyük Qayıdış" Gənclər Təşkilatı İctimai Birliyinin sədr müavini Əhliyət Mehdiyev deyib.

Ə.Mehdiyev Aprel döyüşləri zamanı Azərbaycan Ordusunun demək olar ki, çox kiçik bir bölmələrinin - kəşfiyyat xüsusi təyinatlı hərbi hissələrinin döyüş əməliyyatlarına cəlb olunduğunu bildirib. Onun sözlərinə görə, istər cəbhənin Füzuli-Cəbrayıl istiqamətində Lələtəpə yüksəkliyinin, istərsə də Goranboy-Tərtər-Ağdərə istiqamətində Talış yüksəkliklərinin azad olunması Azərbaycan Ordusunun böyük uğuru oldu. Aprel döyüşləri nəticəsində Azərbaycan Ordusu 2 min hektar ərazini tam azad etdi, eyni zamanda, minlərlə hektar strateji ərazi silahlı qüvvələrimizin bölmələrinin nəzarəti altına keçdi. Aprel döyüşləri nəticəsində Azərbaycan Ordusu Ermənistanın 20 ildən artıq formalaşdırmış olduğu keçilməz "Ohanyan" səddini darmadağın etdi. Ən əsası dördgünlük müharibədə əldə edilən Zəfər xalqın Azərbaycan Ordusuna inamını özünə qaytardı.

Xüsusi Təyinatlı Qüvvələrin ehtiyatda olan zabiti Aprel döyüşlərində iştirakı haqqında da məlumat verərək deyib: "Düşmən təxribatının qarşısının alınması üçün yuxarı komandanlıqdan qarşımıza döyüş tapşırığı qoyuldu. Xüsusi təyinatlı tabor tərkibində bölmə ilə birlikdə hərbi hissənin xüsusi əməliyyat briqadası düşmən təxribatının qarşısını almaq üçün Talış yüksəklikləri uğrunda döyüşə qatıldı. Qısa müddətdə - 40-45 dəqiqə ərzində düşmənin ön xəttini yardıq. Biz ön xətti yaranda onlar bir neçə dəfə pusqu qurdular. Elə həbab edirdilər ki, açdıqları atəş nəticəsində bizim bölmədə olan şəxsi heyətin bir qismi ya şəhid olub, ya da yaralanıb. Ancaq biz ərazi relyefindən düzgün istifadə edərək irəliləməyə davam etdik və düşmən səngərlərinə daxil olduq. Düşmən duyuq düşəndən sonra isə üzbəüz döyüşlər başladı. Şok atəşlər erməni əsgərlərini qorxuya saldı. Demək olar ki, postlardakı 10-a qədər əsgərdən 2-3-ü döyüşçülərimiz tərəfindən məhv edilən kimi digər erməni əsgərləri "052 xüsusi təyinatlılar" gəldi deyib öz yaralılarını, ölülərini, silah-sursatlarını, mühafizə və müdafiə təşkil etdikləri mövqeləri atıb qaçmağa başladılar. Qısa müddətdə biz o postlarda, yüksəkliklərdə möhkəmləndik. Ermənilər bizimlə üzbəüz döyüşə tab gətirə bilmədiyi üçün qarşı tərəfdə dağların ətəyində yerləşən mövqelərindən olduğumuz mövqelərə minaatan, özüyeriyən artilleriya, tanklarla atəş açmağa başladılar. Növbəti iki gün ərzində dəfələrlə əks-hücum əməliyyatları həyata keçirsələr də, Azərbaycan Ordusu, artilleriya qoşunları dəqiq zərbələrlə onları geri otuzdurdu.



Biz xüsusi təyinatlılar döyüşdə qruplar və badilər şəklində hərəkət edirik. Qruplar şəklində təyin olunan say tərkibi olursa, badilər iki nəfərdən ibarət olur. Hər iki şəxs bir-birini qoruyur və bir-birinə cavabdehlik daşıyır. Aprelin 3-ü gecə düşmən təref əkshücum əməliyyatı həyata keçirməyə cəhd etdi. Həmin vaxt onlarla döyüşə-döyüşə mövqeləri qoruyub saxladıq. Uğursuz həmlənin ardınca artilleriya mərmilərindən, qradlardan atəş açmağa başladılar. Dəfələrlə minaatan mərmiləri yaxınlığımıza düşsə də, ərazi relyefindən düzgün istifadə edərək mərmilərin partlayışından yayına bilirdik. Hücumlarının nəticəsiz olduğunu görüb bizi tanklarla vurmağa başladılar. Artıq aprelin 3-ü səhər 5 radələrində Suqovuşan istiqamətdən qrad mərmilərinin atəşinə məruz qaldıq. Reaktiv yaylım mərmilərinin bir neçəsi bizim yaxınlığımıza düşdü. Mən badim Şəhriyar Eyvazovla idim, mərmi bizim bir neçə metrliyimizə düşdü. Xoşbəxtlikdən təpənin üstündə idik, mərmi isə təpənin altına düşmüşdü. Güclü partlayış dalğası mən və badimi 5-6 metr kənara ataraq yerə möhkəm çırpdı. Nəticədə hər ikimiz ağır kəllə-beyin travması aldıq, onurğa beynimiz zədələndi. Ayaqlarımızdan qəlpə yaraları alsaq da, xoşbəxtlikdən qəlpələrin çox hissəsi bizi tutmamışdı. Digər silahdaşlarımız bizi döyüş meydanından təxliyə etdilər. Silahlı Qüvvələrin Baş Klinik Hospitalında bir ilə qədər müalicə olundum və hərbi həkim komissiyasının qərarı ilə 2017-ci ilin iyununda səhhətimdə yaranan problemə görə ehtiyata buraxıldım. Hazırda ikinci qrup Qarabağ qazisiyəm".

XTQ-nin ehtiyatda olan zabiti Aprel döyüşləri nəticəsində bütün dünyanın ordumuzun gücünü gördüyünü, eyni zamanda, Azərbaycanın heç vaxt işğal faktı ilə barışmayacağını, nəyin bahasına olursa-olsun, öz tarixi torpaqlarını azad edəcəyinin şahidi olduğunu diqqətə çatdırıb. Bildirib ki, Aprel döyüşlərindən sonra Ermənistanın yüksəkrütbəli hərbi qulluqçuları, generalları ordudan qovuldular, siyasi hakimiyyət dəyişikliyi baş verdi. Həmin dövrlərdə Azərbaycan gənclərinin Müdafiə Nazirliyinə, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinə müraciət edərək döyüşmək istədiklərini bildirməsini xüsusi qeyd etmək lazımdır. Məhz həmin dörd gün ərzində hər kəsin qəlbi Qarabağla döyünürdü. Azərbaycandan fərqli olaraq isə Ermənistan ordusunda həm əsgərlər, həm də yüksəkrütbəli zabitlər arasında çoxlu sayda fərarilik hallarının olduğunun şahidlik etdik. Ən əsası Aprel döyüşləri 44 günlük Vətən müharibəsinə əldə etdiyimiz Qələbə üçün bir başlanğıc, mayak oldu. Təsadüfi deyil ki, dördgünlük müharibədə əldə edilən Zəfərdən ruhlanan Azərbaycan Ordusu uğurlarını davam etdirdi. İstər Cünnüt əməliyyatı, istər Tovuz hadisələri, istər 44 günlük Vətən müharibəsi, istərsə də son antiterror əməliyyatları Azərbaycan Ordusunun hərbi qulluqçularının yüksək peşəkarlığının, orduda olan vətənpərvərlik ruhunun, qarşıya qoyulan bütün tapşırıqları layiqincə və dəqiq yerinə yetirmək əzmində və gücündə olduğunun göstəricisidir. Aprel döyüşlərindən başlanan yollar bizi Xankəndiyə qədər gətirib çıxardı. Vaxtilə işğalda olan bütün ərazilərimizdə hazırda üçrəngli Bayrağımız qürurla dalğalanır.

# Mənəvi-psixoloji hazırlıqda tədbirlərin əhəmiyyəti

Ordunun gücü müasir döyüş texnikaları və silahlarla bir sırada, həm də şəxsi heyətin döyüş, mənəvi-psixoloji hazırlığının səviyyəsi ilə də müəyyənləşdirilir. Vətən müharibəsindən əvvəl də belə idi, Vətən müharibəsindən sonra da belədi. Döyüş hazırlığı təlimlərlə, mənəvi-psixoloji hazırlıq söhbətləri ilə, tədbirlərlə, diskussiyalarla tənzimlənir, möhkəmləndirilir, yüksəldilir. Tədbirlər həm Müdafiə Nazirliyinin təsdiq etdiyi plana əsasən, həm də göstəriş və tövsiyələr əsasında aparılır. Hərbi hissələrdə əlavə olaraq müəyyən tədbirlər də keçirilir...

Bayram günlərinə, tarixi günlərə həsr olunmuş tədbirlər söhbət formatında da təşkil olunur, viktorina, yaxud diskussiya formatında da. Viktorina da, diskussiya da şəxsi heyətin mövzuya bələdliyi ilə, mövzuya aid daha çox məlumata malik olması ilə bağlı tədbirlərdəndir. 31 Mart - Azərbaycanlıların Soyqırımı Günü ilə əlaqədar keçirilən disputda əsgərlərin fəallığı onların tariximizə bələdliyinin təsdiqi idi. Əsgərlər zamanında oxuduqlarını xatırlatmaqla ermənilərin təzahürlərinin soyqırımlarla, faciələrlə, təxribatlarla əsaslandırırdılar. Onlardan biri 1992-ci ildə Kəlbəcərin Başlıbel kəndində törədilmiş faciə ilə 1918-ci ildə Qubanın Alpan kəndində törədilmiş faciə arasında vəhşiliyin eyni olduğunu bildirdi - onlarla sakin qətlə yetirilmişdi. Onu da xatırladı ki, dünya ictimaiyyəti erməniliyi ötən əsrin əvvəllərində Quba faciəsinə görə, sonunda Xocalı faciəsinə görə daha əhatəli tanıdı. Ancaq Ermənistan heç birində ciddi suçlanmadı, beynəlxalq məhkəmələrə verilmədi. Ermənistan ayrılıqda Meşəli faciəsinə görə də beynəlxalq məhkəmədə cavab verməli idi, Bağanıs-Ayrıma görə də, Qaradağlıya görə də, Xocalıya görə də. Belə tədbirlər həm tarixi yaşadır, həm də onların düşüncələrini vətənpərvərliklə doluğunlaşdırır.

Azərbaycan Ordusunun yaranması Şərqdə ilk demokratik cümhuriyyət olan Azərbaycan Demokratik Respublikası ilə bağlıdır. Azərbaycanın dövlət müstəqilliyi bərpa edildikdən sonra - 1991-ci il oktyabrın 18-də müstəqillik haqqında Konstitusiya Aktı qəbul olunduqdan sonra yaranan ordumuz Ermənistanın Azərbaycandan ərazi iddiasına görə başladığı ədalətsiz müharibədə döyüşə-döyüşə formalaşırdı. Ancaq yerli müdafiə batalyonlarının vahid komandanlıqdan idarə olunmaması, ambisiyalar, orduda ciddi intizamın olmaması onun formalaşmasına imkan vermirdi. Xalqın ciddi tələbi ilə hakimiyyətə qayıdan böyük tarixi şəxsiyyət Heydər Əliyev ordumuzu nizami ordu kimi formalaşdırdı.

Ermənistan sülh danışıqlarından yayınırdı, regionda mövcud status-kvonu saxlamağa çalışırdı, yeni ərazilər işğal etmək niyyəti ilə hücumlar edirdi. Azərbaycan Ordusunun hissələri 2020-ci il sentyabrın 27-də Ermənistan silahlı birləşmələrinin hücumunun qarşısını qətiyyətlə aldı, Ali Baş Komandanın əks-hücum əmri ilə Vətən müharibəsinin - Azərbaycanın ədalətli müharibəsinin başlanğıcı oldu. Ordumuz düşmən sədlərini dağıda-dağıda irəliləyir, mövqe qələbələri qazanırdı. Noyabrın 8-də Şuşanı işğaldan azad etdi, noyabrın 10-da üçtərəfli Bəyanat imzalandı - tarixi Zəfər qazanıldı. Əsgərlərlə söhbətlərdə Zəfər tariximizi əhatələyən mövzulardan da ətraflı danışılır. Əsgərlərin Vətən müharibəsi haqqında bildikləri bu söhbətlər vasitəsi ilə ümumiləşdirilir. Onlar Zəfəri şərtləndirən amilləri həm ayrılıqda, həm də vəhdətdə mənimsəyirlər. Ordunun gücü ilə, ordu-xalq birliyi ilə, şəxsi heyətin döyüş əzmi ilə, qələbə ruhu ilə, Ali Baş Komandanın sərkərdəlik məharəti ilə bir daha qürurlanırlar ki, bu qürur da özlüyündə mənəvi-psixoloji hazırlığın səviyyəsinin göstəricisi kimi təzahür edir. Vətən müharibəsi iştirakçılarının döyüş təəssüratlarını maraqla dinləyən əsgərlər bir daha əmin olurlar ki, Azərbaycan Ordusu güclüdür, torpaqlarımızı müdafiə etməyə qadirdir. Bu əminlik də mənəvi-psixoloji hazırlıqda əhəmiyyətli olur...

Azərbaycan Ordusunun şəxsi heyəti ordumuzun formalaşma mərhələlərini əhatə edən məruzələri də maraqla dinləyir, söhbətləri də. Bu maraq, əslində, orduya, deməli, Vətənə sevgi deməkdir. Xalq şairi Zəlimxan Yaqubun "Ordum varsa, yurdum var" şeiri əsasında təşkil edilən söhbət şəxsi heyətin orduya inamını, sevgisini daha da artırma baxımından qiymətləndirilməlidir. Yurdum, yəni, Vətənim. Ordum Vətənimi qoruyur. Şeir vətənpərvərlik şeiridir, vətənpərvərlik şeiri əsasında təşkil edilən tədbir vətənpərvərlik tədbiri kimi tarixləşir...

2023-cü ilin sentyabrında keçirilən əməliyyat tədbirləri nəticəsində Azərbaycanın ərazi bütövlüyü tam bərpa edildi. Bu, tarixi Zəfərin davamı kimi tarixləşdi, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev oktyabrın 15-də Azərbaycanın Dövlət Bayrağını Xankəndidə də dalğalandırdı. Bu, ictimaiyyətin dönməz qüruru oldu. Xankəndidə keçirilən paradı ordumuzun şəxsi heyəti də maraqla izlədi. Bu parad qətiyyətin, qüdrətin paradı kimi tarixləşdi, hərbi qulluqçular da onu 2020-ci ildə keçirilən hərbi paradın məntiqi davamı bildilər. Bu da mənəvi-psixoloji hazırlıqda əhəmiyyətli oldu...

Ümumiyyətlə, mənəvi-psixoloji hazırlığın səviyyəsinin yüksəldilməsində tədbirlər olduqca əhəmiyyətlidir...

**Polkovnik-leytenant**
**Elmar ZEYNALABDİNOV**
**"N" hərbi hissəsi**

# Döyüşə hazır olmaq, özünlə bərabər silahının da döyüşə hazır olmasıdır



*Ordunun döyüş qabiliyyətinə mühüm təsir edən amillərdən biri şəxsi heyətin ona təhkim olunmuş silah və texnikaya qayğısı, onun saz vəziyyətdə qorunub saxlanması, vaxtlı-vaxtında zəruri texniki qulluq göstərilməsidir. Bunun üçün Azərbaycan Ordusunda təsdiq edilmiş illik fəaliyyətlər planına uyğun olaraq kompleks tədbirlər həyata keçirilir, şəxsi heyət öz ixtisasına əsasən, döyüş texnikaları, hərbi avtomobilləri, silahları tam işlək vəziyyətə gətirməyə çalışırlar.*

Belə ki, görülən işlərin əsas məqsədi ordunun qarşısında duran tapşırıqların icrasında fəaliyyətin tam, fasiləsiz təşkil olunmasını təmin etməkdir. Son illərdə ərazi bütövlüyümüzü təmin etmiş şanlı ordumuzun gücləndirilməsi, müasir tələblər səviyyəsində daha da formalaşması üçün görülən işlər uğurla davam etdirilir. "N" hərbi hissəsinin avtomobil parkında şəxsi heyətin texnikalara qulluğu prosesində iştirak etdik.

Zabit Faiq Əliyev görülən işlərlə bağlı zəruri məlumatlar verdi: "Döyüşə hazır olmaq həm də silahının və texnikanın döyüşə hazır olmasıdır. Silahını döyüşə hazır etmək üçün onu hər zaman saz və işlək vəziyyətdə saxlamaq vacibdir. Komandanlıq tərəfindən qarşıya qoyulan tapşırığa əsasən, hər həftə şəxsi heyət avtomobil parkında ona təhkim olunmuş silah və texnikaya qulluq göstərir. Silah və texnikadan dayanıqlı və tam istifadə etmək üçün ona planlı və lazımi texniki qulluq göstərmək əsas şərtdir. Yeni tədris dövrünün başlaması ilə bölməmizin hərbi qulluqçuları təhkim olunmuş texnikaların lazımi səviyyədə istismarını təmin etmək üçün zəruri işlər görür, habelə baş verə biləcək hər hansı nasazlığı aradan qaldırmaq üçün çalışır. Bölmənin hərbi qulluqçuları uzun illərdir ordu sıralarında xidmət edirlər, öz ixtisasının, həmçinin texnikanın incəliklərinə bələddirlər. Texnikanın istismara hazır vəziyyətdə olması döyüş qabiliyyətinə təsir edən əsas məsələlərdəndir. Təbii ki, tapşırığın yerinə yetirilməsində vaxt və nəticə əsas sayılır. Bunun üçün də texnikanın hərəkətə maneəsiz hazır olmasını təmin etmək üçün ona zəruri texniki qulluq da göstərmək lazımdır".

Texnikaya qulluq göstərən gizir Rövşən Abdullayev qeyd etdi ki, günün nizam qaydalarına uyğun olaraq şəxsi heyət xidmət etdiyi bölmənin tabeliyində olan hərbi maşın və döyüş texnikalarını təmizləyir, onların texniki qulluğunu təmin edir. Uzun illərdir ordu sıralarında xidmət edən bir hərbi qulluqçu kimi deyə bilərəm ki, ilk gün üzərimə düşən vəzifəni böyük həvəslə icra edirəm. Silah da döyüşdə sənin ən yaxın dostundur. Onu döyüşə hazır saxlamalı, "dilini" yaxşı bilməlisən. Texnikanın saz vəziyyətdə olması tapşırığın icrasında mühüm amildir. İştirak etdiyimiz təlimlərdə də qarşıya qoyulan tapşırıqları dəqiq və yüksək səviyyədə yerinə yetiririk. Bunun başlıca səbəbi bölmənin döyüş hazırlığı və bu hazırlığı şərtləndirən texnikaya zəruri qulluqdur".

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Elman Əliyev texniki qulluğun lazımi qaydada göstərilməsinin yüksək praktiki və nəzəri bilikdən yaranan təcrübə tələb etdiyini vurğuladı: "Texnikanın istifadə qaydalarını, onun texniki hissəsini dərindən mənimsəmək lazımdır. Çünki onun fəaliyyətini fasiləsiz və dəqiq təmin etmək üçün sənə təhkim olunmuş texnikanın incəliklərini gərək dərindən mənimsəyəsən. Texnikada yaranmış nasazlığın vaxtında aradan qalxmaması, döyüş tapşırığının gecikməsi ilə nəticələnə bilər ki, bu da öz növbəsində döyüş qabiliyyətinin aşağı düşməsinə də vasitə ola bilər. Ona görə də hər bir hərbi qulluqçu ona təhkim olunmuş silah və texnika haqqında praktiki və nəzəri bilikləri dərindən mənimsəməli, ona lazımi səviyyədə texniki qulluq göstərməyi bacarmalıdır. Bir sözlə, texnikanın fasiləsiz və dayanıqlı fəaliyyətini təşkil etmək üçün rəhbərliyin qarşıya qoyduğu tapşırıqları uğurla icra edirik".



Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Kazım Bayramov dedi ki, texnikaya texniki qulluqla yanaşı, onun təmizliyini, sazlığını qoruyub saxlamaq da vacibdir. "Həmçinin texnikanın isti və soyuq hava şəraitində istismarı üçün zəruri vasitələrlə, ehtiyat hissələri və avadanlıqlarla təmin olunmuşuq. Belə ki, hər bir heyət nəfəri fərdi və qrup şəklində döyüş maşınının hərəkət hissəsinə nəzarət, döyüş hissələrinə zəruri qulluq göstərir, mühərriklərin yağ və filtrləri dəyişdirilir. Bölməmizin döyüş fəaliyyətini yüksək səviyyədə saxlanılması üçün əlimizdən gələni edirik. Döyüş sınağından uğurla çıxmağı bacarmış bölməmiz sonrakı xidmətini də layiqincə təşkil edir, komandanlığın bizə etimadını doğrultmağa çalışırıq. Çünki biz qalib ordunun əsgərləriyik".

**Kapitan**
**Fuad CƏFƏROV,**
**fotolar**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**
**"Azərbaycan Ordusu"**

# Milli Müdafiə Universiteti tabeliyində fəaliyyət göstərən xüsusi təyinatlı təhsil müəssisələrinə qəbul elan edir

## Bakı və Gəncə şəhərlərində, eləcə də Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən hərbi kolleclərə 2024/2025-ci tədris ili üçün namizədlərin qəbulu qaydaları

### HƏRBİ KOLLECLƏRƏ *(orta ixtisas təhsili pilləsinə)* *2024/2025-ci tədris ili üçün sənəd qəbulu*

**Ümumi məlumat:**

**Tədris dili: Azərbaycan dili** **Təhsil forması: əyani** **Təhsil müddəti: 2 il**

Cari ildə mülki ümumtəhsil müəssisələrində tam orta təhsil səviyyəsini bitirmiş, qəbul ilində 17 yaşı tamam olan və 20 yaşı tamam olmayan Azərbaycan Respublikasının kişi cinsli vətəndaşları, habelə 18 yaşından 23 yaşınadək kişi cinsli, zabit rütbəsi olmayan hərbi qulluqçular (zabit və gizir (miçman) hərbi rütbəsi olanlar istisna olmaqla) və hərbi vəzifəlilər qəbul edilirlər.

**SƏNƏDLƏRİN QƏBULU:**

Hərbi kolleclərə qəbul olmaq istəyən namizədlər **1 aprel 2024-cü il tarixindən 30 aprel 2024-cü il** tarixinədək ərizə ilə müraciət etməlidirlər. Ərizəyə aşağıdakı **sənədlər** əlavə olunmalıdır:

1. Abituriyentin təsdiq olunmuş elektron ərizəsindən çıxarış
2. Anket forması (yerində doldurulur)
3. Oxuduğu təhsil müəssisəsindən (iş və ya yaşayış yerindən) verilmiş xasiyyətnamə
4. Tam orta təhsil haqqında sənədin surəti (cari ilin məzunları üçün arayış)
5. Doğum haqqında şəhadətnamənin surəti
6. Şəxsiyyət vəsiqəsinin surəti və ya yeni nəsil şəxsiyyət vəsiqəsindən çıxarış
7. Nikah və uşaqların doğum haqqında şəhadətnamənin surəti (evli və uşaq olduqda)
8. Ailə tərkibi və yaşayış yeri haqqında arayış
9. Rəngli fotoşəkil (baş geyimsiz, anfas) 6 ədəd 3x4 sm ölçüdə və 2 ədəd 4.5x6 sm
10. 18 yaşı tamam olmayan namizədlər üçün valideynlərin və ya qəyyumlarının razılıq ərizələri ölçüdə
11. Tibb üzrə: Elektrokardioqramma, Qanın və Sidiyin ümumi analizi, Qan qrupu və rezus-faktor, Qanın QİÇS və sifilisə görə seroloji reaksiyalara və Hepatit C və hepatit B-yə dair müayinələrinin nəticələri, psixonevroloji, narkoloji, vərəm və dəri-zöhrəvi dispanserlərindən (kabinetlərdən) qeydiyyatda olub-olmaması haqqında arayışlar

***Qeyd:* *Şəxsiyyət vəsiqəsi, doğum haqqında şəhadətnamə, hərbi qeydiyyat haqqında sənəd və tam orta təhsil haqqında sənədin əsli namizəd tərəfindən komissiyaya şəxsən təqdim edilir.***

### *HƏRBİ KOLLECLƏRƏ QƏBUL AŞAĞIDAKI QAYDADA HƏYATA KEÇİRİLİR*

1. Götürülməmiş intizam cəzası olan (yalnız hərbi qulluqçular), məhkumluğu ödənilməmiş və ya üzərindən götürülməmiş, həmçinin ağır və ya xüsusilə ağır, habelə hərbi xidmət əleyhinə cinayət törətmiş, hərbi təhsil müəssisələrindən xaric edilən, hərbi həkim komissiyası tərəfindən hərbi kollecdə təhsil almağa yararsız hesab olunan və öyrənilmə tədbirləri keçirilən zaman hərbi kolleclərə qəbula mane olan digər hallar müəyyən edilən şəxslər hərbi kolleclərdə təhsil almaq üçün namizədlər siyahısına **daxil edilmirlər.**
2. Müvafiq yoxlamalardan müvəffəqiyyətlə keçən namizədlərin siyahısı qəbul imtahanında iştirak etmək üçün Dövlət İmtahan Mərkəzinə göndərilir.
3. Namizədlərin hərbi kolleclərə qəbulu müvafiq tədris ilində tam orta təhsil səviyyəsi üzrə buraxılış imtahanı verən abituriyentlərin buraxılış imtahanında, digər abituriyentlərin isə müvafiq tədris ilində keçirilən qəbul imtahanında əldə etdikləri nəticələrə əsasən ***Dövlət İmtahan Mərkəzi tərəfindən*** həyata keçirilir.
4. Qəbul imtahanının tarixi ***Dövlət İmtahan Mərkəzi*** tərəfindən elan olunur.

**İMTİYAZLAR**

***- 500 (beş yüz) manat məbləğində birdəfəlik ödəmə;***
***- 100 (yüz) manat məbləğində aylıq təqaüd;***
***- 200 (iki yüz) manat məbləğində ailə üzvlərinə aylıq maddi yardım;***
***- 150 (yüz əlli) manat məbləğində hesabda yığılan aylıq ödəniş.***
***- Hərbi kolleclərdə orta ixtisas təhsili pilləsinə qəbul olan şəxslər təhsil müddətində bütün təminat növləri ilə təmin olunurlar.***
***- Hərbi kolleclərin məzunlarına hərbi ixtisasla yanaşı, müvafiq mülki ixtisas üzrə subbakalavr peşə-ixtisas dərəcəsi də verilir.***

***Namizədlər hərbi həkim komissiyasında müayinədən keçməlidirlər. Hərbi həkim komissiyasından keçmək üçün tarix və ünvan namizədlərə sənəd qəbulu mərkəzlərində bildiriləcəkdir.***

**Ətraflı məlumat üçün əlaqə nömrəsi:**
***0811 (həftənin iş günləri, saat 09:00-dan 18:00-dək)**
**Web ünvan:** www.mmu.edu.az

## *Hərbi liseylərə 2024/2025-ci tədris ili üçün sənəd qəbulu*

**Ümumi məlumat:**

**Tədris dili: Azərbaycan dili** **Təhsil forması: əyani** **Təhsil müddəti: 2 il**

Cari ildə ümumtəhsil müəssisələrində orta təhsil səviyyəsini bitirmiş, qəbul ilində 15 yaşı tamam olan və 17 yaşı tamam olmayan Azərbaycan Respublikasının kişi cinsli vətəndaşları qəbul edilirlər.

**SƏNƏDLƏRİN QƏBULU:**

Hərbi liseylərə qəbul olmaq istəyən namizədlər **1 aprel 2024-cü il tarixindən 30 aprel 2024-cü il** tarixinədək ərizə ilə müraciət etməlidirlər. Ərizəyə aşağıdakı **sənədlər** əlavə olunmalıdır:

1. Anket forması (yerində doldurulur)
2. Doğum haqqında şəhadətnamənin surəti
3. Valideynlərin və ya qəyyumlarının razılıq ərizələri
4. Şəxsiyyət vəsiqəsinin surəti və ya yeni nəsil şəxsiyyət vəsiqəsindən çıxarış
5. Ailə tərkibi və yaşayış yeri haqqında arayış
6. Rəngli fotoşəkil (baş geyimsiz, anfas) 6 ədəd 3x4 sm ölçüdə və 2 ədəd 4.5x6 sm
7. Sinif rəhbəri tərəfindən yazılmış və məktəb direktoru tərəfindən təsdiq edilmiş xasiyyətnamə
8. Tibb üzrə:
   - Burunətrafı boşluqların rentgenoqrafiyası,
   - Elektrokardioqramma,
   - Qanın və Sidiyin ümumi analizi, Qan qrupu və rezus-faktor, Qanın QİÇS və sifilisə görə seroloji reaksiyalara və Hepatit C və hepatit B-yə dair müayinələrinin nəticələri,
   - Nəcisdə helmintlərin yumurtalarının müayinəsinə dair tibbi sənəd dizenteriya qrupuna dair müayinə,
   - Əsnəkdən və burundan difteriya çöplərinin aşkar edilməsi üçün müayinə,
   - Psixonevroloji, narkoloji, vərəm və dəri-zöhrəvi dispanserlərindən (kabinetlərdən) qeydiyyatda olub-olmaması haqqında arayışlar.
   - Xroniki və son 12 ay ərzində keçirdiyi yoluxucu və parazitar xəstəliklərə görə dispanser qeydiyyatında olub-olmaması barədə məlumatlar, ambulator xəstənin tibbi kartı (olunmuş peyvəndlər haqqında məlumat), stasionar xəstənin tibbi kartından çıxarışlar (forma № 27/U),

***Qeyd: Şəxsiyyət vəsiqəsi, doğum haqqında şəhadətnamə, hərbi qeydiyyat haqqında sənəd və təhsil haqqında sənədin əsli namizəd tərəfindən komissiyaya şəxsən təqdim edilir.***

### *HƏRBİ LİSEYLƏRƏ QƏBUL AŞAĞIDAKI QAYDADA HƏYATA KEÇİRİLİR*

Hərbi həkim komissiyasının qərarına əsasən hərbi liseydə təhsil almağa yararlı hesab edilən namizədlər internet vasitəsi ilə elektron ərizə formasını doldurur, şifrə və iş nömrəsini çap edir, sonra həmin şifrə və iş nömrəsi ilə sənəd qəbulu üzrə regional məntəqələrə gələrək elektron ərizə formasını təsdiq etdirirlər. Dövlət İmtahan Mərkəzi tərəfindən müəyyən olunan müddətdə namizədlər Dövlət İmtahan Mərkəzinin rəsmi elektron saytında şifrə və iş nömrələrini daxil etməklə qəbul imtahanına buraxılış vərəqəsi alırlar.

Ümumi orta təhsil haqqında attestatda hər hansı bir fənn üzrə ***yekun qiymət "2" olan*** namizədlərə imtahana buraxılış vərəqəsi verilmir və onlar hərbi liseyə qəbul olunmurlar.

Namizədlər ***Dövlət İmtahan Mərkəzi*** tərəfindən test üsulu ilə keçirilən qəbul imtahanı verirlər. Test imtahanı aşağıdakı fənlər üzrə Azərbaycan dilində aparılır:

***– Azərbaycan dili;***
***– riyaziyyat;***
***– fizika;***
***– kimya.***

Namizədlər hərbi liseylərə ***Dövlət İmtahan Mərkəzi*** tərəfindən keçirilən qəbul imtahanının nəticələrinə əsasən qəbul edilirlər.

Elektron ərizələrin doldurulma, imtahana buraxılış vərəqəsinin verilmə, imtahanların başlama tarixləri barədə məlumatlar Dövlət İmtahan Mərkəzinin internet saytında və kütləvi informasiya vasitələrində elan olunur.

***Qəbul imtahanının tarixi Dövlət İmtahan Mərkəzi tərəfindən elan olunur.***

**İMTİYAZLAR**

***- 300 (üç yüz) manat məbləğində birdəfəlik ödəmə;***
***- 50 (əlli) manat məbləğində aylıq təqaüd;***
***- 100 (yüz) manat məbləğində ailə üzvlərinə aylıq maddi yardım;***
***- 100 (yüz) manat məbləğində hesabda yığılan aylıq ödəniş.***
***- Hərbi Liseylərə qəbul olan kursantlar təhsil müddətində bütün təminat növləri ilə təmin olunurlar.***

***Namizədlər hərbi həkim komissiyasında müayinədən keçməlidirlər. Hərbi həkim komissiyasından keçmək üçün tarix və ünvan namizədlərə sənəd qəbulu mərkəzlərində bildiriləcəkdir.***

**Ətraflı məlumat üçün əlaqə nömrəsi:**
***0811 (həftənin iş günləri, saat 09:00-dan 18:00-dək)**
**Web ünvan:** www.mmu.edu.az

(Ardı 8-ci səhifədə)

# Milli Müdafiə Universiteti tabeliyində fəaliyyət göstərən xüsusi təyinatlı təhsil müəssisələrinə qəbul elan edir

(Əvvəli 7-ci səhifədə)

## Azərbaycan Tibb Universitetinin Hərbi Tibb Fakültəsinə Hərbi feldşer işi ixtisası üzrə 2024/2025-ci tədris ili üçün qəbul qaydaları

### *AZƏRBAYCAN TİBB UNİVERSİTETİNİN Hərbi Tibb Fakültəsinə Hərbi feldşer işi ixtisası üzrə 2024/2025-ci tədris ili üçün sənəd qəbulu*

**Ümumi məlumat:**

**Tədris dili:** **Azərbaycan dili** **Təhsil forması:** **əyani** **Təhsil müddəti:** **3 il**

Cari ildə mülki ümumtəhsil müəssisələrində tam orta təhsil səviyyəsini bitirmiş, qəbul ilində 17 yaşı tamam olan və 20 yaşı tamam olmayan Azərbaycan Respublikasının kişi cinsli vətəndaşları, habelə 18 yaşından 23 yaşınadək kişi cinsli, zabit rütbəsi olmayan hərbi qulluqçular (zabit və gizir (miçman) hərbi rütbəsi olanlar istisna olmaqla) və hərbi vəzifəlilər qəbul edilirlər.

**SƏNƏDLƏRİN QƏBULU:**

Hərbi feldşer işi ixtisası üzrə Hərbi Tibb Fakültəsinə qəbul olmaq istəyən namizədlər **1 aprel 2024-cü il tarixindən 30 aprel 2024-cü il** tarixinədək ərizə ilə müraciət etməlidirlər. Ərizəyə aşağıdakı **sənədlər** əlavə olunmalıdır:

1. **Abituriyentin təsdiq olunmuş elektron ərizəsindən çıxarış**
2. **Anket forması (yerində doldurulur)**
3. **Oxuduğu təhsil müəssisəsindən (iş və ya yaşayış yerindən) verilmiş xasiyyətnamə**
4. **Tam orta, yüksək texniki peşə, orta ixtisas və ya ali təhsil haqqında sənədin surəti (cari ilin məzunları üçün arayış)**
5. **Doğum haqqında şəhadətnamənin surəti**
6. **Şəxsiyyət vəsiqəsinin surəti və ya yeni nəsil şəxsiyyət vəsiqəsindən çıxarış**
7. **Nikah və uşaqların doğum haqqında şəhadətnamənin surəti (evli və uşaq olduqda)**
8. **Ailə tərkibi və yaşayış yeri haqqında arayış**
9. **Rəngli fotoşəkil (baş geyimsiz, anfas) 6 ədəd 3x4 sm ölçüdə və 2 ədəd 4.5x6 sm**
10. **18 yaşı tamam olmayan namizədlər üçün valideynlərin və ya qəyyumlarının razılıq ərizələri ölçüdə**
11. **Tibb üzrə: Elektrokardioqramma, Qanın və Sidiyin ümumi analizi, Qan qrupu və rezus-faktor, Qanın QİÇS və sifilisə görə seroloji reaksiyalara və Hepatit C və hepatit B-yə dair müayinələrinin nəticələri, psixonevroloji, narkoloji, vərəm və dəri-zöhrəvi dispanserlərindən (kabinetlərdən) qeydiyyatda olub-olmaması haqqında arayışlar**

***Qeyd: Şəxsiyyət vəsiqəsi, doğum haqqında şəhadətnamə, hərbi qeydiyyat haqqında sənəd və tam orta təhsil haqqında sənədin əsli namizəd tərəfindən komissiyaya şəxsən təqdim edilir.***

***HƏRBİ FELDŞER İŞİ İXTİSASI ÜZRƏ HƏRBİ TİBB FAKÜLTƏSİNƏ QƏBUL AŞAĞIDAKI QAYDADA HƏYATA KEÇİRİLİR***

1. Götürülməmiş intizam cəzası olan (yalnız hərbi qulluqçular), məhkumluğu ödənilməmiş və ya üzərindən götürülməmiş, həmçinin ağır və ya xüsusilə ağır, habelə hərbi xidmət əleyhinə cinayət törətmiş, hərbi təhsil müəssisələrindən xaric edilən, hərbi həkim komissiyası tərəfindən fakültədə təhsil almağa yararsız hesab olunan və öyrənilmə tədbirləri keçirilən zaman Hərbi tibb fakültəsinə qəbula mane olan digər hallar müəyyən edilən şəxslər Hərbi Tibb Fakültəsində təhsil almaq üçün namizədlər siyahısına ***daxil edilmirlər.***
2. Müvafiq yoxlamalardan müvəffəqiyyətlə keçən namizədlərin siyahısı müsabiqədə iştirak etmək üçün ***Dövlət İmtahan Mərkəzinə*** göndərilir.
3. Namizədlərin Hərbi Tibb Fakültəsinə qəbulu müvafiq tədris ilində tam orta təhsil səviyyəsi üzrə buraxılış imtahanı verən abituriyentlərin buraxılış imtahanında, digər abituriyentlərin isə müvafiq tədris ilində keçirilən qəbul imtahanında əldə etdikləri nəticələrə əsasən ***Dövlət İmtahan Mərkəzi*** tərəfindən həyata keçirilir.
4. ***Qəbul imtahanının tarixi Dövlət İmtahan Mərkəzi tərəfindən elan olunur.***

***İMTİYAZLAR***

- ***Hərbi feldşer işi ixtisası üzrə Hərbi Tibb Fakültəsinə qəbul olan şəxslər təhsil müddətində bütün təminat növləri ilə təmin olunurlar.***
- ***Hərbi Tibb Fakültəsinin Hərbi feldşer işi ixtisası üzrə məzunlarına hərbi ixtisasla yanaşı, müvafiq mülki ixtisas üzrə subbakalavr peşə-ixtisas dərəcəsi də verilir.***

***Namizədlər hərbi həkim komissiyasında müayinədən keçməlidirlər. Hərbi həkim komissiyasından keçmək üçün tarix və ünvan namizədlərə sənəd qəbulu mərkəzlərində bildiriləcəkdir.***

**Ətraflı məlumat üçün əlaqə nömrəsi:**
***0811 (həftənin iş günləri, saat 09:00-dan 18:00-dək)**
**Web ünvan:** www.mmu.edu.az

## Azərbaycan Tibb Universitetinin Hərbi Tibb Fakültəsinə Hərbi tibb, Stomatologiya, İctimai səhiyyə və Əczaçılıq ixtisasları üzrə 2024/2025-ci tədris ili üçün qəbul qaydaları

### *AZƏRBAYCAN TİBB UNİVERSİTETİNİN Hərbi Tibb Fakültəsinə Hərbi tibb, Stomatologiya, İctimai səhiyyə və Əczaçılıq ixtisasları üzrə 2024/2025-ci tədris ili üçün sənəd qəbulu*

**Ümumi məlumat:**
**Tədris dili:** **Azərbaycan dili** **Təhsil forması:** **əyani**
**Təhsil müddəti:** Hərbi tibb ixtisası - **6 il**; Stomatologiya ixtisası - **5 il**; İctimai səhiyyə ixtisası - **5 il**; Əczaçılıq ixtisası - **4 il**.

Cari ildə mülki ümumtəhsil müəssisələrində tam orta təhsil səviyyəsini bitirmiş, qəbul ilində 17 yaşı tamam olan və 20 yaşı tamam olmayan Azərbaycan Respublikasının kişi cinsli vətəndaşları, habelə 18 yaşından 23 yaşınadək kişi cinsli, zabit rütbəsi olmayan hərbi qulluqçular və hərbi vəzifəlilər qəbul edilirlər.

**SƏNƏDLƏRİN QƏBULU:**

Hərbi tibb, Stomatologiya, İctimai səhiyyə və Əczaçılıq ixtisasları üzrə Hərbi Tibb Fakültəsinə qəbul olmaq istəyən namizədlər **1 aprel 2024-cü il tarixindən 30 aprel 2024-cü il** tarixinədək ərizə ilə müraciət etməlidirlər. Ərizəyə aşağıdakı **sənədlər** əlavə olunmalıdır:

1. **Abituriyentin təsdiq olunmuş elektron ərizəsindən çıxarış**
2. **Anket forması (yerində doldurulur)**
3. **Oxuduğu təhsil müəssisəsindən (iş və ya yaşayış yerindən) verilmiş xasiyyətnamə**
4. **Tam orta təhsil haqqında sənədin surəti (cari ilin məzunları üçün arayış)**
5. **Doğum haqqında şəhadətnamənin surəti**
6. **Şəxsiyyət vəsiqəsinin surəti və ya yeni nəsil şəxsiyyət vəsiqəsindən çıxarış**
7. **Nikah və uşaqların doğum haqqında şəhadətnamənin surəti (evli və uşaq olduqda)**
8. **Ailə tərkibi və yaşayış yeri haqqında arayış**
9. **Rəngli fotoşəkil (baş geyimsiz, anfas) 6 ədəd 3x4 sm ölçüdə və 2 ədəd 4.5x6 sm**
10. **18 yaşı tamam olmayan namizədlər üçün valideynlərin və ya qəyyumlarının razılıq ərizələri ölçüdə**
11. **Tibb üzrə: Elektrokardioqramma, Qanın və Sidiyin ümumi analizi, Qan qrupu və rezus-faktor, Qanın QİÇS və sifilisə görə seroloji reaksiyalara və Hepatit C və hepatit B-yə dair müayinələrinin nəticələri, psixonevroloji, narkoloji, vərəm və dəri-zöhrəvi dispanserlərindən (kabinetlərdən) qeydiyyatda olub-olmaması haqqında arayışlar**

***Qeyd: 1. Namizədlər hər hansı səbəbdən Hərbi Tibb Fakültəsində təhsil almaqdan imtina etdikləri halda, Azərbaycan Tibb Universitetindən xaric olunmaları barədə öhdəlik götürürlər.***

***2. Şəxsiyyət vəsiqəsi, doğum haqqında şəhadətnamə, hərbi qeydiyyat haqqında sənəd və təhsil haqqında sənədin əsli namizəd tərəfindən komissiyaya şəxsən təqdim edilir.***

***HƏRBİ TİBB FAKÜLTƏSİNƏ QƏBUL AŞAĞIDAKI QAYDADA HƏYATA KEÇİRİLİR***

**1.** Götürülməmiş intizam cəzası olan (yalnız hərbi qulluqçular), məhkumluğu ödənilməmiş və ya üzərindən götürülməmiş, həmçinin ağır və ya xüsusilə ağır, habelə hərbi xidmət əleyhinə cinayət törətmiş, hərbi təhsil müəssisələrindən xaric edilən, hərbi həkim komissiyası tərəfindən institutda təhsil almağa yararsız hesab olunan və öyrənilmə tədbirləri keçirilən zaman Hərbi Tibb Fakültəsinə qəbula mane olan digər hallar müəyyən edilən şəxslər Hərbi Tibb Fakültəsində təhsil almaq üçün namizədlər siyahısına ***daxil edilmirlər***.
**2.** Müvafiq yoxlamalardan müvəffəqiyyətlə keçən namizədlərin siyahısı qəbul imtahanında iştirak etmək üçün **Dövlət İmtahan Mərkəzinə** göndərilir və onlar **Dövlət İmtahan Mərkəzi** tərəfindən keçirilən ***qəbul imtahanı*** verirlər. Qəbul imtahanı ***IV ixtisas qrupunun*** fənləri üzrə keçirilir.
***3. Qəbul imtahanının tarixi Dövlət İmtahan Mərkəzi tərəfindən elan olunur.***

***İMTİYAZLAR***

***- Hərbi Tibb Fakültəsinə qəbul olan şəxslər ödənişsiz əsaslarla təhsil alırlar.***
***- Hərbi Tibb Fakültəsinə Hərbi tibb ixtisası üzrə qəbul olmuş şəxslər 4-cü kursadək, Stomatologiya və İctimai səhiyyə ixtisasları üzrə qəbul olmuş şəxslər 3-cü kursadək, Əczaçılıq ixtisası üzrə qəbul olmuş şəxslər 2-ci kursadək təhsil aldıqdan sonra hərbi andı qəbul edirlər və bütün növ təminatlarla təmin edilirlər.***

***Namizədlər hərbi həkim komissiyasında müayinədən keçməlidirlər. Hərbi həkim komissiyasından keçmək üçün tarix və ünvan namizədlərə sənəd qəbulu mərkəzlərində bildiriləcəkdir.***

**Ətraflı məlumat üçün əlaqə nömrəsi:**
***0811 (həftənin iş günləri, saat 09:00-dan 18:00-dək)**
**Web ünvan:** www.mmu.edu.az

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Hüseynov Kamil Şadət oğluna məxsus AD № 0018785 nömrəli şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.

**Baş redaktorun müavini**
mayor
Məhəmməd NƏSİRLİ

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
Rəşid HÜSEYNOV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi Nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti **mod.gov.az** saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 138
Nüsxə 4650